# Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə daim qayğı göstərilir

> ***Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7 minə yaxın minik avtomaşını verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə, o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban vermişdir və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Dekabrın 24-də Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevə məlumat verildi ki, 1997-ci ildən 2018-ci ilədək Qarabağ müharibəsi əlillərinə 4597, şəhid ailələrinə 1582, İkinci Dünya müharibəsi, Çernobıl və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlara isə 475 mənzil və fərdi ev verilib. Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər 1998–2018-ci illər ərzində 6155 avtomobillə təmin edilib. Bu il isə daha 600 avtomobilin təqdim olunması nəzərdə tutulur.

Yeni inşa olunan binadakı 96 mənzildən 62-si Qarabağ müharibəsi əlilinə, 34-ü isə şəhid ailələrinə təqdim olunub. Bu qəbildən olan vətəndaşlara ilin əvvəlindən bəri 700 mənzil və fərdi ev verilib. İlin sonunadək isə 234 mənzil və fərdi evin təqdim olunması planlaşdırılır.

Prezident İlham Əliyev mərasimdə çıxışı zamanı “Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7 minə yaxın minik avtomaşını verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə, o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban vermişdir və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək”,-- deyə vurğulayıb.

Dövlət başçısı Azərbaycanın Milli Qəhrəmanı Sahil Məmmədov, Boccia İdman Federasiyasının baş katibi İlham Məhərrəmov, Dilarə Mövludova, Zərifə Sultanova və digər mənzil və avtomobil alanlarla görüşüb, səmimi söhbət edib və deyib: “Mən bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm, sizə Yeni ildə yeni uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram”.

Yeri gəlmişkən, dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə Prezident İlham Əliyev 2019-cu ildə yüksək nailiyyətlər göstərmiş 23 idmançıya və idman mütəxəssisinə də yeni mənzillərin orderlərini təqdim edib.

Qeyd edək ki, ilin son ayında şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə fərdi ev və mənzillərin verilməsi prosesi daha da sürətlənib. Dekabrın əvvəlində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Astara, Ağdam, Tərtər, Saatlı, İmişli, Zaqatalada yeni inşa olunmuş 21 fərdi yaşayış evini şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edib. Evlərin təqdimolunma mərasimində qeyd olunub ki, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması ölkəmizdə aparılan güclü sosial siyasətin mühüm tərkib hissəsidir. Bu məqsədlə icra olunan proqramlardan biri də şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzillərlə, fərdi yaşayış evləri ilə təmin olunmasıdır. Bu kateqoriyalardan olan vətəndaşlara 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilibsə, 2019-cu ildə 934 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, onlardan artıq böyük əksəriyyəti təqdim edilib. Ümumilikdə, indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 7256 mənzil və fərdi ev təqdim edilib.



Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı tədbirləri keçən həftə Abşeron rayonunun Saray qəsəbəsində davam etdirilib. Burada yeni yaşayış binalarından alınmış və müasir tələblərə uyğun yaşayış şəraitinə malik 27 mənzil bu kateqoriyalardan olan vətəndaşlara təqdim edilib. Bundan öncə isə Lənkəran rayonunda bir qrup şəhid ailəsi və Qarabağ müharibəsi əlili fərdi yaşayış evləri ilə təmin olunub. Abşeron rayonunun Məmmədli kəndində də bir qrup şəhid ailəsinə və müharibə ilə əlaqədar əlil olmuş vətəndaşlara yeni mənzillər təqdim edilib. Həmçinin, qeyd olunan kateqoriyalardan olan vətəndaşlara ayın əvvəlində Bakının Qaradağ və Abşeron rayonlarında 30 mənzil verilib. Abşeronda mənzillə təmin olunan şəhid ailələri arasında Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyevin ailəsinə də üçotaqlı mənzil təqdim edilib.

Abşeron rayonunda mənzillərin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Prezident İlham Əliyevin tapşırığı əsasında sosial cəhətdən həssas qruplara qayğının daim artırıldığını bildirib. Qeyd edib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin mənzillə təminatı işləri ildən-ilə gücləndirilir. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş vətəndaşların avtomobillə təminatı tədbirlərindən də bəhs edilib. Bildirilib ki, 2018-ci ildə bu kateqoriyadan olan vətəndaşlara 265 avtomobil təqdim olunubsa, bu il həmin insanlara 600-ə yaxın avtomobilin verilməsi planlaşdırılıb, onlardan da 500-ə yaxını artıq verilib. Qeyd olunan vətəndaşlara indiyədək 6465 minik avtomobili təqdim edilib.

> ***Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olmuş döyüşçü ailələrinin və əlillərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların yeni mənzillərlə təminatı Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət başçısının rəhbərliyi ilə bu istiqamətdə icra olunan işlərin nəticəsini sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar öz həyatlarında hiss edirlər. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli daim diqqət mərkəzindədir.***

Tədbirdə 2019-cu il ərzində ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin artırılması istiqamətində atılan mühüm addımlar diqqətə çatdırılıb. Cari ildə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdlərinin, ümumən əlilliyi olan şəxslərin müavinətlərinin də orta hesabla 100 faiz artırıldığı bildirilib.

Xatırladaq ki, seçkilərdən sonrakı dövrdə – Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın 2018-ci il avqustun 1-də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün yeni mənzillərin təqdim olunması tədbirində iştirak etmələri, həmçinin bu il yanvarın 28-də şəhid ailələri ilə görüşmələri bu kateqoriyadan olan vətəndaşlara yüksək səviyyədə qayğının, hörmət və ehtiramın növbəti təsdiqi oldu. Mənzillərin təqdim olunması mərasimindən bir gün sonra dövlət başçısı Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2018-ci ildə əlavə olaraq 20 milyon manat vəsait ayrılmasına dair sərəncam imzaladı. Nəticədə 2018-ci ildə həmin kateqoriyalardan olan insanlara nəzərdə tutulduğundan (207 mənzil) 3 dəfə çox olmaqla 626 mənzil təqdim edildi və bu vaxta qədər mənzillə təmin edilənlərin sayı 6654-ə çatdı.

2019-cu il 28 yanvar tarixli sərəncamla şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün mənzillərin alınması məqsədilə 35 milyon manat ayrıldı. Eləcə də 18 mart 2019-cu il tarixli sərəncamla müharibə əlillərinin minik avtomobilləri ilə təminatı üçün 5 milyon manat ayrılması 2019-cu ildə əlavə 400-dən artıq avtomobil alınmasına, nəticədə bu il müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox, yəni 600-dək avtomobil verilməsinə imkan yaratdı. Qeyd edək ki, müharibə əlillərinə ötən il 265, indiyə qədər isə 6465 avtomobil verilib.

Şəhid ailələri ilə görüşdə onlara diqqət və qayğı göstərilməsinin öz fəaliyyətində daim prioritet təşkil etdiyini vurğulayan Prezident İlham Əliyev 30 yanvar 2019-cu ildə imzaladığı fərmanla şəhid ailəsi üçün Prezidentin aylıq təqaüdünü 242 manatdan 300 manata, eləcə də Əfqanıstanda şəhid olanların ailələri üçün Prezident təqaüdünü 21 fevral 2019-cu il tarixli fərmanla 220 manatdan 300 manata çatdırdı.

Şəhid ailələrinə diqqət, eyni zamanda, keçən il özünü bir daha göstərdi. Prezident seçkilərindən sonra ilk imzalanan fərman da şəhid ailələri ilə bağlı oldu. Bu fərman əsasında öncə 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulurdu. Ancaq sonradan məlum oldu ki, vaxtilə müavinət alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Bunu nəzərə alaraq, Prezident yeni fərman imzaladı. Bu fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Onların içərisində təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlar vardı. Bu proqramın icrası üçün dövlət büdcəsindən ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur. Bu, kifayət qədər böyük məbləğdir. Prezident İlham Əliyev 2019 cu il yanvarın 28-də şəhid ailələri ilə görüşündə demişdir: ”Bu, bizim siyasətimizdir, bu, bizim yolumuzdur, biz bu yolu gedirik. Bu gün sizi buraya, Prezident Sarayına dəvət edərək istədim ki, bu sözlərimi, bu fikirlərimi sizə özüm çatdırım. İstədim ki, bir daha sizinlə görüşüm, bir daha sizə öz təşəkkürümü, dərin hörmət və ehtiramımı bildirim”.

Qeyd etmək lazımdır ki, indiyədək 12268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüquqlarının olduğu müəyyən edilib. Onlardan artıq 11740 şəhidin 17479 vərəsəsi birdəfəlik ödəmə ilə təmin olunub. Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı indiyədək 96 faiz yerinə yetirilib.

Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” 24 dekabr 2019-cu il tarixli sərəncamı bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasının dövlət başçısının daim diqqət mərkəzində olduğuğunu bir daha təsdiq edir.

Sərəncamla büdcədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılan 20 milyon 610 min manat respublikamızın bölgələrində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün yeni fərdi yaşayış evlərinin tikintisi işlərinin uğurla davam etdirilməsinə təminat verir. Eyni zamanda, Prezident bu kateqoriyadan olanlara gələn il ən azı 1500 mənzil və fərdi evin verilməsinin nəzərdə tutulduğunu bildirib. Göründüyü kimi, dövlət başçısının şəhid ailələrinə və müharibə əlillərinə xüsusi qayğısı həmin insanların mənzillə təminatı tədbirlərinin gələn il də yüksələn xətt üzrə davam edəcəyinə, növbəti ildə bu kateqoriyadan olanların mənzillə və fərdi evlərlə təmin ediləcəyinə zəmin yaradır.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***